*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* ISSN 2224-9257
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 481-487*
https://doi.org/10.59849/2224-9257.2024.1.481

**MƏMMƏDOVA NAHİDƏ UMUD QIZI**
**Bakı Dövlət Universiteti**
mnahide 093@gmail.com

# YUSİF VƏZİR ÇƏMƏNZƏMİNLİ HEKAYƏLƏRİNDƏ YUXU MOTİVİNDƏN İSTİFADƏ
## (Mühitin tənqidi aspektində)

Ədəbiyyatın inkişaf qanunauyğunluqlarından biri onun folklora, öz ilkin mənbəyinə fəal şəkildə müraciətidir. Folklor və onun motivləri yazılı ədəbiyyata mövzu və forma verir, ədəbiyyatın milli xarakterini müəyyənləşdirir. Az yaradıcı sənətkar tapmaq olar ki, xalq dilindən, özünəməxsusluğunu qoruyub saxlayaraq zamanın sınaqlarından çıxan folklor qaynaqlarından bəhrələnməsin. Şifahi ədəbiyyatın yazılı ədəbiyyat üçün önəmini xüsusi vurğulayan f.e.d. M.Hacıyevanın sözləri ilə desək, “Başqa sözlə, nüvəsinə folklor ruzigarı əsməyən əsər, təbiri caizsə, distillə olunmuş suya bənzər.Bütün saflığına və təmizliyinə baxmayaraq belə suyu içmək olmur” [ 3, s. 6].

Ümumiyyətlə, folklordan süjet əxz etmək, xalq ədəbiyyatında olan motiv və elementlərdən və s. yararlanmaq bədii yaradıcılığın bütün dövrlərində istifadə olunan yaradıcılıq xüsusiyyətidir. Öz aktuallığını itirməyən belə motivlərdən biri də ta qədim zamanlardan bədii ədəbiyyatda təzahür edən yuxu motividir. Yuxu həm süjetqurmada, həm də qəhrəmanların xarakterlərinin açılmasında istifadə olunur.

Şifahi xalq ədəbiyyatında hadisənin yuxu, röya ilə bağlı şəkildə cərəyan etməsi geniş yayılmış üsullardandır. Xüsusilə, nağıl və dastanlarda yuxu görmək, onu yozdurmaq, nəticə çıxartmaq süjetin inkişafında, hadisələrin tamamlanmasında xüsusi əhəmiyyətə malikdir. Görkəmli ədəbiyyatşünas B.Abdullayev qeyd edir ki, “Folklor ədəbiyyatında yuxu, əsasən, ikili xarakterdə olur. Qəhrəman yuxuda ona buta verilmiş sevgilisini şəhərbəşəhər, kəndbəkənd axtarır, uzun axtarışlardan sonra mətləbinə çatıb xoşbəxt olur...İkinci cəhət isə gələcəkdə baş verəcək bir fəlakət, faciənin hələ xeyli əvvəl yuxuda görülməsidir” [1, s. 114]. Birinci məqama daha çox məhəbbət dastanlarında rast gəlinir.(“Novruz”, “Abbas və Gülgəz” və s.) Yuxuda gələcəkdə baş verənlərin əks olunması baxımdan “Kitabi-Dədə Qorqud” dastanı səciyyəvidir. Məsələn, “Salur Qazanın evinin yağmalanması” boyunda Qazan xan yuxuda gördüklərini qardaşı Qaragünəyə danışır və onun yozumundan məlum olur ki, düşmən onun evini yağmalayıb.

Qədim zamanlardan bəri ədəbiyyatda müxtəlif məqsədlərlə istifadə olunan yuxu motivinə XX əsr ədəbiyyatında bir sıra sənətkarların- C.Məmmədquluzadə, Ə.Haqverdiyev, Y.V.Çəmənzəminli və b. yaradıcılığında rast gəlirik.

XX əsr Azərbaycan realist nəsrinin, ədəbi-bədii fikrinin yeni mərhələyə daxil olmasında müstəsna xidmətləri olan Y.V.Çəmənzəminli tarixi roman və hekayə

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, ISSN 2224-9257
Filologiya məsələləri № 1, 2024
Səh. 481-487
https://doi.org/10.59849/2224-9257.2024.1.481
ustası, publisist, folklorşünas, tarixçi-etnoqraf kimi çoxcəhətli yaradıcılıq yolu keçmişdir. Özünəməxsus yaradıcılıq xüsusiyyətinə, sadə, aydın dil-üsluba, orijinal yazı tərzinə sahib yazıçının əsərlərində ta qədimdən başlamış xalqımızın tarixi inkişafı, həyatı, adət-ənənələri real lövhələrlə öz əksini tapmışdır.

Hələ gənc yaşlarından folklora olan dərin marağı sayəsində şifahi ədəbiyyatın tədqiqi ilə ciddi məşğul olmuş, həm nəzəri məsələləri ilə bağlı dəyərli mülahizələr söyləmiş, həm də bir sıra janrların toplanıb təsnif edilməsində bilavasitə iştirak etmişdir. Təəccüblü deyildir ki, xalq ədəbiyyatına bu qədər dərindən bağlı olması onun əsərlərinin ruhuna da hopmuşdur. Ədib hekayə və romanlarında folklorun ən ümdə ünsürlərindən yaradıcılıqla bəhrələnmişdir. Bu baxımdan onun yeri gəldikcə xalq mərasimlərinə, xalq ədəbiyyatının müxtəlif janrlarına və s. istinad etməsini misal göstərmək olar.

Ədibin, xüsusən, hekayələrində tez-tez rast gəlinən folklor motivləri içində yuxu detalı diqqəti cəlb edir: "Əgər şifahi ədəbiyyatda yuxu mahiyyət etibarilə daha çox romantik əhvali-ruhiyyə ilə bağlıdırsa, Çəmənzəminlinin əsərlərində bu, real planda verilir "[1, s. 114]. Bu da məhz müəllifin yaşadığı dövrün, mühitin gerçəkliyi ilə bağlıdır. Məlumdur ki, XX əsr ictimai-siyasi həyatı mürəkkəb, keşməkeşli ziddiyyətlərlə dolu olmuş, cəmiyyətin həyatı qaranlıqlarla dolu bir cəhənnəmə çevrilmişdir. Belə bir dövrdə, bu qatı qaranlığın içində ümid işığı kimi parlayan, müəllifinin dediyi kimi, yaranmasına mühitin özünün rəvac verdiyi "Molla Nəsrəddin" jurnalı meydana gəlmişdir. Başda qüdrətli ədib Cəlil Məmmədquluzadə olmaqla, müqtədir qələm sahibləri jurnalın ətrafına toplaşaraq xalqını qaranlıqdan işığa çıxarmaq, cəhalətin, fanatizmin, köləliyin kökünü sarsıtmaq uğrunda sarsılmaz mübarizə aparmışdır. Y.V.Çəmənzəminli də belə bir dövrün yetirməsi olaraq zamanın çiyinlərinə qoyduğu missiyanı düzgün başa düşərək bu uğurda çalışmışdır. Odur ki, yazıçının hekayələri əsas etibarilə mühitin və zamanın güzgüsü olmaqla, gerçəkliyi əks etdirməyə xidmət etmişdir. Yazıçının reallığı əks etdirməklə tənqid hədəfinə çevirdiyi amillərin açılmasında yuxu əlverişli priyomlardan biri kimi çıxış edir. Bu baxımdan ayrı-ayrı hekayələrdə yuxudan istifadə üsullarına diqqət yetirmək yerinə düşər.

Yusif Vəzirin kamil nəsr əsərlərindən biri olan "Cənnətin qəbzi" ədəbiyyatımızda klassik hekayə nümunəsi kimi məşhurdur. Burada demək olar, bütün dövrlər, o cümlədən XX əsr ədəbiyyatı üçün aktual olan avamlıq, dini fanatizm kimi məsələlər tənqid olunur. Usta Ağabalanın timsalında minlərlə onun kimi avam müsəlmanın şüur səviyyəsi, davranışları, şəxsi və ailə faciəsi təsvir olunur. Axirət dünyası eşqi ilə yaşayan, həyat nemətlərini cənnətin huri-qılmanına qurban verən Usta Ağabala bu uğurda dəridən- qabıqdan çıxır. Maraqlıdır ki, maddi və mənəvi yoxsulluğu birləşəndə qəribə bir tip yaranır.

Yazıçı onun düşdüyü tragikomik vəziyyəti real şəkildə canlandırmaq üçün yuxusu ilə hamamda qorxub dəli olmasını məqsədyönlü düşünmüşdür. Əgər hamam

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 481-487*
https://doi.org/10.59849/2224-9257.2024.1.481
səhnəsinə qədər obrazın istər ailə, istərsə də möminlər mühitində hərəkətlərini görürüksə, yuxu isə ilk növbədə, onun necə bir mühitdə dünyaya gəlməsini, bu vəziyyətə düşməsinin səbəblərini anlamaq baxımdan əhəmiyyətlidir.

Xaos içində təsvir olunan Veylabad şəhərində dünyaya göz açan Ağabala sanki yaşayacağı faciəni qabaqcadan duyaraq öz halına ağlayırdı: “Qadınlar çağaya baxdıqca deyirdilər: “Suya dönmüş oldu-olmadı, şəhərin növrağı döndü!”..Ağabala çox ağlağan idi; ağlayanda da üzünü turşudurdu, sanki mərsiyə deyəcək idi..” [2, s. 52].

Sonrakı səhnələrdə isə onun təhsil həyatı, mollaxana mühiti kinayəli şəkildə ifşa olunur. Atası onu mollaya tapşırıb Quranı bitirərək məsələsinə arif olacağını gözləyərkən, ustanın qoçaqlığı başqa məsələlərdə üzə çıxır: “o biri uşaqlar məktəbə bir küyüm su verəndə, Ağabala beş-altı küyüm verərdi, bazara gedib mollaya piti alardı... quluncu duranda da arxasını ona tapdaladardı; çubuğunu da o doldurardı” [2, s. 52-53]. Hətta digər şagirdlər Ağabalanın bu “xoşbəxtliyinə” həsəd aparırdılar. Göründüyü kimi, ədib yuxuda bu hadisələri təsvir etməklə ümumilikdə, mollaxanalarda ikrah doğuran davranışları, qeyri-düzgün təlim- tərbiyə üsullarını tənqid edir.

Digər tərəfdən müəllif yuxu vasitəsilə cənnət və cəhənnəmin bədii kontrastını yaradır. Ağabala əvvəlcə cəhənnəmin dəhşətlərini görərək qorxsa da, qəbz yadına düşən kimi rahatlanır. Ayrı-ayrı peşə sahiblərinin hesabat verərək qır qazanına atıldıqlarını görəndə sevincini gizləyə bilmir. Təyyarəçini görəndə lənət oxuyur ki, az qala Allahın da yanına çıxmaq istəyirlər. Bu düşüncə isə onun mənəvi puçluğundan irəli gəlir.

Nəhayət, yuxunun sonunda ona bəxş olunmuş qəbz sayəsində cənnətə ayaq basan Ağabala buranın gözəlliyinə heyran olur. Arzusunda olduğu huri-qılmana qovuşduğu məqamda isə sevinci qursağında qalır. Başına düşən fitə onu yuxudan oyadaraq real həyatın qaranlığı ( cəhənnəmi) ilə üz- üzə qoyur. Usta Ağabalanın dəli olmasına səbəb qaranlıq hamam kimi göstərilsə də, alt qatına baxsaq, bunun fonunda bəlkə də, içində olduğu həyatın cəhənnəm misalı dəhşətli olmasını görməsinə görədir. Yəni, yuxuda qəbz alaraq cənnətə gedib çıxırsa, real həyatda bu yuxu onun faciəsinə zəmin olur. Əgər din xadimləri cənnətin ancaq cismani ölümdən sonra gediləcək bir yer olduğunu vəd edirsə, yazıçı yuxu-kiçik ölüm vasitəsilə bunun bədii təsvirini yaradır. Bununla təkcə Ağabalanın deyil, onun timsalında avam, mömin insanların bu xülyalardan oyanaraq ayıq başla gerçək həyatı az da olsa, anlamalarını istəmişdir.

Şifahi xalq ədəbiyyatı nümunələrindən görürük ki, müəyyən bir yuxu görüldükdə, xüsusi şəxslər tərəfindən yozularmış. Bəzən yuxunun, hətta ən kiçik cəhəti belə düzgün yozulmadıqda, yəni, nəzərdə tutulmuş hadisə ilə müvafiq gəlmədikdə onun nəticəsi həm yuxuyozan, həm də bunu izah etdirən üçün çox baha başa gəlirmiş (“Astiaq əfsanəsi). Bu baxımdan Çəmənzəminlinin həcmcə yığcam və

lakonik olan "Ağsaqqal" hekayəsi maraqlıdır. Burada yazıçı rəiyyətlə hakim təbəqə arasındakı uçurumu qələmə almışdır. Əsnaf təbəqəsindən olan Gülsüm qarı Alıpaşa ağanın qızını oğlu Fərəcə almaq istəyir. Lakin müsbət cavab alacağına ümid etmir.

Hadisələrin sonrakı axarında görülən yuxu mühüm rol oynayır. Belə ki, Gülsüm qarı yuxuda görür ki, at samanlıqda arpa çuvalını iyləyib şıllağa qalxır, ayağı ilə vurub mehtərin aftafasını dağıdır. O öz yuxusunu belə yozur: " "Atcığaz" muraddır. Bunuca bilirəm,- dedi,- "aftafa" da ki, paklıqdır. "Su" da aydınlıqdır. O ki, qaldı "şıllaq"?... "Şıllaq" nə olacaq ki,- dedi, - o da toydur, şadyanalıqdır.." [2, s. 89]. Yuxunun bu qədər açıq- aydınlığı Gülsüm qarını Alı Paşa ağanın evinə gətirib çıxarır. Onun qızını oğlu üçün istəyir. Əsnaf arvadının bu cəsarəti bəyin heysiyyatına toxunsa da, özünü toxdaq saxlayaraq "ağsaqqal"la məsləhətləşdikdən sonra cavab verəcəyini söyləyir. Qarı bəyin evindən çıxanda yekə bir it onun üstünə atılır və bədənini didik-didik edir. Buradan da məlum olur ki, "ağsaqqal" qızı verməyə razı deyilmiş.

Zahirən belə görünür ki, hadisələr bununla da tamamlanacaq. Lakin müəllif belə etmir. Yerinə oturmayan məqam budur ki, yuxuya əsasən Gülsüm qarı evinə xoş xəbərlə qayıtmalı idi. Folklorda sınaqdan çıxmış at da, su da buna işarə edirdi. Məsələnin nə üçün gözlənilən kimi reallaşmamasının cavabını hekayənin sonunda tapırıq. Ədib yazır: " Qarı güc ilə özünü evinə yetirib, bərk titrədi və üç gündən sonra öldü. Yuxuda at şıllağı görmək titrəyib ölmək mənasında imiş!.." [2, s. 91].

Yazıçı sonluğu belə verməklə psixoloji kontrastı daha da dərinləşdirmişdir. Gülsüm qarının sevinc hissləri, arzu və düşüncələri ilə başına gələn dəhşətli müsibəti qüvvətli bədii təzad şəklində əks etdirir. "Ağsaqqal"ın – quduz bir itin pəncəsində həlak olan Gülsüm qarı təmiz niyyəti yolunda haqsızlığın, rəiyyətə qarşı həqir münasibətin günahsız qurbanı olur.

Ümumilikdə, deyə bilərik ki, hekayədə yuxu motivi aparıcı rol oynamaqla, ictimai həyatın əks qütblərində duran insanların təfəkkür tərzi, mənəvi aləmi müxtəsər bir süjet əsasında ustalıqla təsvir edilir.

Bədii ədəbiyyatın mərkəzində dayanan, aktuallığını itirməyən məsələlərdən biri də qadın azadlığı mövzusudur. XX əsr gerçəkliyində isə bu, xüsusilə, əhəmiyyət kəsb edirdi. Feodal- patriarxal mühitdə, dini ehkamların kişilərə hədsiz üstünlüklər qazandırdığı bir dövrdə qadın qul, kölə hesab olunurdu, demək olar, cansız əşyadan fərqləndirilmirdi. Realist yazıçı kimi Yusif Vəzir hekayələrində o zamankı Azərbaycan ailələrinin ümumi vəziyyəti, qadınların acınacaqlı halı, qız heysiyyəti və mənliyinin kobudcasına tapdalanması məsələlərini ön plana çəkirdi.

Başqa əsərlərində olduğu kimi, baş mövzusu qadın olan hekayələrində də müəllif hadisələrin təbii axarını, ideya və məzmunu daha canlı vermək üçün folklor elementlərindən istifadə etmişdir. "Müsəlman arvadının sərgüzəştləri", "Dərdli Züleyxa", "Yuxu" və s. hekayələrində folklor motivlərindən ustalıqla istifadə

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 481-487*
https://doi.org/10.59849/2224-9257.2024.1.481
edilmişdir. Bu baxımdan süjeti, demək olar, başdan-sona yuxu əsasında qurulan "Yuxu" hekayəsi maraq doğurur.

Burada diqqəti cəlb edən odur ki, yazıçı yuxu ilə də olsa, obrazın daxili aləmini, əhvali-ruhiyyəsini təbiətlə, fəsillərlə qarşılaşdırır. Əsərdə əsas hadisələr Fatmanın yuxusu ətrafında cərəyan edir. 19 yaşına çatdığı halda hələ də elçisi olmadığı, bəxti bağlandığı üçün anasının məzəmmətlərinə məruz qalan Fatma göz yaşları içində yuxuya gedir. Burada da psixoloji məqamlar təzadlar üzərində açılır. Həyatının cavanlıq çağları müvafiq olaraq bahar fəsli ilə ahəngdə əks olunur.

Anaxanım adlı qarı ilə qarşılaşdıqdan sonra özünə gün ağlamalı olduğunu düşünərək qoşulub qaçır. Ailə qurmaqla yeni bir həyata qədəm qoymağın səadət gətirəcəyinə inanır, ailəsinə qarşı çıxaraq onlarla qayıtmır. Lakin saf arzuları çox çəkmir ki, puç olur. Uçuq daxmaya gəlin gətirilən Fatma görür ki, kişinin arvadı varmış. Elə həmin gündən evdən qovğa, dava-dalaş əskik olmur.

Birinci arvadın hökmranlıq etdiyi evdə Fatma qul vəziyyətinə salınır, döyülür, söyülür, get-gedə sağlamlığını, göəzlliyini də itirir. Beləcə, aylar ötür, illər dolanır, Fatma bezərək ata evinə sığınsa da, rədd edilir. Qazı belə, qadının hökmü ərindədir - deyərək boşamır. Çarəsiz qalan qadının fəryadını, əzablarını müəllif öz dili ilə inandırıcı şəkildə ifadə edir: " -Ay Allahı sevənlər, - deyirdi, - mənə bir yazığı gələn yoxmu? Vurun ölüm, bəlkə, yaman kişidən qurtarım!" [2, s. 135].

Hekayənin sonu da özünəməxsus tamamlanır. Fatma özünü ər evində başı-gözü qan içində görür, qocaldığını duyaraq "vay cavanlıq deyərək" qışqırdığı zaman yuxudan oyanır: " Ətrafında yatmış ata-anası xoruldayırdılar. Fatma gördüyü yuxunun təsirindən hələ yenə də titrəmədə idi" [2, s. 136]. Yazıçı yuxunun fonunda bir qızın simasında qadın hüquqsuzluğunu, onların əsarətdə yaşamalarını ürək yanğısı ilə təsvir etmişdir.

Nəticə etibarilə deyə bilərik ki, Y.V.Çəmənzəminli hansı mövzuda yazır-yazsın, əsərin mərkəzinə qoyduğu problemlərin bədii həllində bir sıra üsullardan, o cümlədən xalq yaradıcılığından əhəmiyyətli dərəcədə yararlanmışdır. Odur ki, bəhs olunan hekayələr və b. əsərlərində yuxudan bir priyom kimi istifadə düşünülmüş bir vasitə kimi əsərlərin daha təsirli olmasını təmin etmişdir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**

1. Abdullayev B. Y. V. Çəmənzəminli və Folklor. Bakı, Elm, 1981, 124 səh.
2. Çəmənzəminli Y.V. Əsərləri. Üç cilddə. I cild. Bakı, "AVRASİYA PRESS", 2005, 360 səh.
3. Hacıyeva M. Ədəbi qaynaqlar. Bakı, Elm və Təhsil, 2014, 242 səh.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 481-487*
https://doi.org/10.59849/2224-9257.2024.1.481

**Məmmədova N.U**

**Yusif Vəzir Çəmənzəminli hekayələrində yuxu motivindən istifadə (Mühitin tənqidi aspektində)**

**Xülasə**

Məqalədə Yusif Vəzir Çəmənzəminli hekayələrində şifahi ədəbiyyatda geniş yayılmış yuxu motivindən istifadə xüsusiyyətləri təhlil olunmuşdur. Yuxu mahiyyət etibarilə folklordan qaynaqlanmaqla, müxtəlif məqsədlərə xidmət etmişdir: gələcəyi görmə, buta verilməsi, ölüm metaforası və s. Qəhrəmanlıq, məhəbbət dastanlarında, eyni zamanda klassik ədəbiyyatda müxtəlif səpkidə qələmə alınmış poemalarda yuxuya tez-tez müraciət edilmişdir. Yusif Vəzir hər şeydən əvvəl, xalq yaradıcılığının araşdırılmasında bilavasitə iştirak etmişdir. Şifahi ədəbiyyatla bu qədər yaxından təmasda olması onun yaradıcılıq ruhuna təsirsiz ötüşməmişdir. Dolayısı ilə müəllif əsərlərində məqsəddən asılı olaraq, istər süjetin qurulmasında, istərsə də xarakterlərin açılmasında folklor element və motivlərindən yerli-yerində faydalanmışdır. Realist sənətkar yuxudan ədəbi priyom kimi istifadə etməklə, psixoloji təzadlar yaratmış, qəhrəmanların daxili aləmini, duyğu və düşüncələrini yuxu vasitəsilə açmağa çalışmışdır. Nəticədə dövrün reallıqlarını əks etdirən hekayalərə yuxu xüsusi rəng qataraq orijinallığı təmin etmişdir.

**Açar sözlər:** Y.V. Çəmənzəminli, folklor, yuxu motivi, dini fanatizm, realist hekayə.

**Mammadova N.U**

**Use of the dream motif in the stories of Yusif Vazir Chamanzaminli (İn the critical of environment)**

**Summary**

In the article, the characteristics of the use of the dream motif, which is widespread in oral literature, are analyzed in the stories of Yusif Vazir Chamanzaminli. The dream, having its origins in folklore, has served various purpose: seeing the future, offering to idols, metaphors for death, etc. Sleep is often referred to in epics of heroism and love, as well as in poems written in various styles in classical literature. Above all, Yusif Vazir directly participated in the research of folk art. Being in such close contact with oral literature didn't affect his creative spirit. Therefore, depending on the purpose of the author's works, either in the construction of the plot or in the development of the characters, he has benefited from folklore elements and motifs. The realist artist created psychological contrasts by using the dream as a literary principle, and tried to reveal the inner world, feelings and thoughts of the heroes through the dream. As a result, the dream added a special color to the stories reflecting the realities of the time and provided originality.

**Key words:** Y.V. Chamanzaminli, folklore, dream motive, religious fanaticism, realistic story.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 481-487*
https://doi.org/10.59849/2224-9257.2024.1.481

**Мамедова Н. У**

**Использование мотива сна в рассказах Юсифа Вазира Чаманзаминли (В критическом аспекте окружающей среды)**

**Резюме**

В статье анализируются особенности использования мотива сновидения, широко распространенного в устной литературе, в рассказах Юсиф Вазир Чаманзаминли. По сути, сон происходит из фольклора и служит разным целям: видения будущего, метафорой смерти и т.д. Сон часто упоминается в былинах о героизме и любви, а также в поэмах, написанных в различных стилях классической литературы. Прежде всего Юсиф Вазир принимал непосредственное участие в исследовании народного творчества. Такое тесное соприкосновение с устной литературой не обошлось без влияния на его творческий дух. Поэтому либо в построении сюжета, либо в развитии характеров, он использовал фольклорные элементы и мотивы в зависимости от цели произведений автора. Художник-реалист создавал психологические контрасты, используя сон как литературный прием, стремясь раскрыть через сон внутренний мир героев, их чувства и мысли. В результате рассказам, отражающим реалии того времени, сон придавал особый цвет и была обеспечена оригинальность.

**Ключевые слова:** Ю.В. Чаманзаминли, фольклор, мотив мечты, религиозный фанатизм, реалистичная история.

**Rəyçi: F.dokt.dos. İradə Rəhmanova**